# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN MUSTAFA BƏY TOPÇUBAŞOV HAQQINDA SÖYLƏDİKLƏRİ

Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Adamlar üçün ən vacib olan sahə - onların sağlamlığının qorunması, insanların xəstəliklərdən xilas olması, sağlam insan yetişdirilməsi cəmiyyət üçün həm keçmişdə, həm indi, həm də gələcəkdə mühüm olan sahədir. Mustafa bəy Topçubaşovun öz fəaliyyətini məhz bu sahəyə həsr etməsi heç də təsadüfi deyil. Bu, onun daxili mənəviyyatı ilə bağlıdır. Bütün həyatı, yaradıcılığı, fəaliyyəti göstərir ki, o, şüurlu olaraq bu sənətdən başlayıbdır. Ancaq yaşadıqca, yaratdıqca onun fəaliyyət dairəsi genişlənib, böyük alim, ictimai-siyasi xadim olubdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtarmasında, elmimizin, təhsilimizin inkişafında böyük xidmətlər göstəribdir.

***

Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır.

***Heydər Əliyev,***
***Ümummilli Lider***

Akademik Mustafa Topçubaşov çoxşaxəli və dolğun fəaliyyəti ilə ziyalılığın parlaq nümunəsini yaratmış böyük nüfuza malik şəxsiyyətdir. O, Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandırmış, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr vermişdir. Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir. Təbabətin müxtəlif sahələri üzrə müalicə texnologiyalarının və cərrahi problemlərin kompleks şəkildə öyrənilməsi yenilikçi alimin fundamental araşdırmalarının başlıca istiqamətlərini təşkil etmişdir. Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda Azərbaycan cərrahiyyəsinin layiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Əgər təbabəti musiqi kimi səsləndirmək mümkün olsaydı, bizim Mustafa bəy təbabət musiqisinin ən böyük bəstəkarlarından biri olardı

***Üzeyir bəy Hacıbəyli,***
***dahi bəstəkar***

M.Topçubaşov AMEA-nın ilk həqiqi üzvlərindən olmuş, həyatını bütünlüklə Azərbaycan səhiyyə sisteminin təkmilləşməsinə, milli tibb kadrlarının hazırlanmasına, onların təkmil mütəxəssis kimi yetişmələrinə həsr etmişdir. Görkəmli alim, həmçinin tibb sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsində, elmdə, tibb təhsilinin tədrisində, müalicə və profilaktika işlərində mühüm islahatların həyata keçirilməsində misilsiz xidmətlər göstərib.

***

86 ildən bir qədər çox şərəfli ömür yaşayan akademik M.Topçubaşov zəngin yaradıcılıq fəaliyyəti ilə sübut etdi ki, onun genindəki elm Azərbaycan xalqına xas xüsusiyyətdir. Bu

xüsusiyyəti onun əlindən, onun timsalında da Azərbaycan xalqının əlindən heç kim nə ala bilər, nə də dana bilər.

***Əhliman Əmiraslanov,***
***akademik***

Mustafa Topçubaçov geniş dünyagörüşü, hərtərəfli biliyi və yüksək musiqi zövqü olan bir şəxs idi.

***Fariz Camalov,***
***tibb elmləri doktoru, professor***

Akademik Mustafa bəy Topçubaşov daim yeniliklərə can atır, bir-birinin ardınca cərrahiyyədə möhtəşəm ixtiralar, yeniliklər edir, dünya tibb elmini yeni nailiyyətlərlə zənginləşdirirdi.

***Şəfa Əliyev,***
***dosent, M.A.Topçubaşov Xatirə muzeyinin rəhbəri***

Ümummilli Liderin indiki və gələcək nəsillərə etibar etdiyi dövlət müstəqilliyimizi möhkəmləndirmək, eləcə də akademik Mustafa bəy Topçubaşov kimi nadir ziyalı şəxsiyyətlərimizin zəngin irsini qorumaq, bu böyük insanların ideyalarını yaşatmaq, onlardan lazımınca bəhrələnmək hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

***Mübariz Allahverdiyev,***
***ATU-nun professoru***

Böyük şəxsiyyətlərin həyatı və əməlləri xalqa və tarixə daim şərəf gətirir. 86 il ömür yaşamış akademik Mustafa bəy Topçubaşov hələ sağlığında zəngin irsi, ilahi vergisi olan istedadı və şəfalı əlləri ilə ölməzlik qazanan şəxsiyyətlərdən idi.

***

Tanrının bəxş etdiyi ömür payını ləyaqətlə yaşayan, həyatının mənasını xeyirxah əməllərdə taparaq bütövlükdə xalqının tərəqqisinə, maariflənməsinə əvəzsiz töhfələr vermiş zəngin mənəviyyat sahibləri bu baxımdan seçilmiş insanlardır. Dünyaşöhrətli alim, əvəzolunmaz cərrah, qayğıkeş həkim, akademik Mustafa bəy Topçubaşov belə şəxsiyyətlərdən biri kimi milyonların qəlbində yaşayır, daim dərin ehtiram və rəğbətlə anılır.

***İradə Əliyeva,***
***fəlsəfə doktoru, dosent***